Azərbaycan. - 2025.- 6 sentyabr (№ 189).- S. 7.

# Avropa İttifaqı "müşahidəçi"lərinin dirənişi

## *Vasilis MARAQOS:* "Aİ-nin missiyası mandatına uyğun fəaliyyətini davam etdirəcək"

**Azərbaycanın və digər region ölkələrinin razılığı alınmadan Avropa İttifaqının (Aİ) Ermənistan sərhədinə yerləşdirilən müşahidə missiyasının "fəaliyyət"i bölgədə peyda olduğu gündən müzakirə mövzusu olub. Rəsmi Bakı bu "missiya" ilə bağlı dəfələrlə narazılığını bildirib, onun Azərbaycanla razılaşdırılmadan fəaliyyət göstərdiyini bəyan edib.**



Hətta Ermənistanın baş naziri Nikol Paşinyan cari ilin fevral ayında verdiyi açıqlamada xüsusi vurğulayıb ki, Ermənistan Azərbaycanla delimitasiya olunmuş sərhəd sahələrində Aİ-nin "mülki missiya"sını yerləşdirməməyə hazırdır: "Azərbaycan deyir ki, üçüncü ölkələrin qüvvələri Ermənistan-Azərbaycan sərhədində yerləşdirilməməlidir və açıq şəkildə Aİ-nin mülki missiyasına işarə edir. Biz bunu nəzərə alaraq və onları delimitasiya olunmuş sərhəd sahələrində yerləşdirməməyi təklif edirik".

Xatırladaq ki, Avropa İttifaqı Ermənistandakı müşahidə missiyasının fəaliyyət müddətini daha iki il uzatmışdı. Bu qərara əsasən, avropalı müşahidəçilər 2027-ci il fevralın 19-dək Ermənistanın Azərbaycanla sərhədyanı rayonlarında qalacaqlar. Dövlətimizin başçısı yerli televiziya kanallarına müsahibəsində bu barədə belə demişdir: "...Heç nə bildirmədən, bizimlə heç bir razılıq olmadan onlar nəinki bu missiyanın müddətini uzatdılar, sayını artırdılar, həm də Avropa İttifaqının üzvü olmayan ölkəni dəvət edərək mahiyyətcə etimadı qırdılar. Sonra, necə deyərlər, bu binoklla rüsvayçı nümayişlər, onlar yarıhərbi geyim və çəkmələr geyinir və oraya hansısa döyüşçülər kimi gedirlər" .

Avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti, ABŞ lideri və Ermənistan baş nazirinin iştirakı ilə iki ölkənin xarici işlər nazirlərinin parafladığı "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətninin 7-ci maddəsinə diqqət yetirək: "Tərəflər qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər. Tərəflər qarşılıqlı sərhədin delimitasiyası və sonrakı demarkasiyasının başa çatmasına qədər, sərhəd bölgələrində təhlükəsizlik və sabitliyin təmin olunması məqsədilə, hərbi sahə də daxil olmaqla, qarşılıqlı razılaşdırılmış təhlükəsizlik və etimad-quruculuğu tədbirləri həyata keçirəcəklər".

Bu o deməkdir ki, regiondakı Avropa İttifaqı müşahidəçiləri Ermənistanın sərhədyanı rayonlarını tərk etməli olacaqlar. Buna baxmayaraq, Aİ-nin Ermənistandakı səfiri Vasilis Maraqos bu günlər verdiyi açıqlamada bildirmişdir: "Missiya fəaliyyətini davam etdirir. Hər hansı dəyişikliyə ehtiyac yaranarsa, bunu üzv dövlətlərimizlə və əlbəttə, Ermənistan hakimiyyəti ilə müzakirə edəcəyik. Ancaq indiki mərhələdə erməni ictimaiyyətini əmin etmək istəyirəm ki, Avropa İttifaqının missiyası mandatına uyğun fəaliyyətini davam etdirəcək". "Saziş Vaşinqtonda paraflanandan sonra hər hansı müzakirə aparılıbmı?" sualını cavablandıran Maraqos qeyd etmişdir ki, Aİ missiyası Ermənistan hakimiyyətinin dəvəti ilə ölkədədir və gərək olduğu müddətdə burada qalacaq: "Bu, sülh və tənzimləmə vasitəsidir. Onu tam dəstəkləyirik".

Azərbaycan tərəfi dəfələrlə bu missiyanın regionun təhlükəsizliyinə təhdid yaratdığını həm Avropa İttifaqının, həm də Ermənistanın diqqətinə çatdırıb. Lakin belə görünür ki, "missiya" nümayəndələri Ermənistanla Azərbaycan arasında müvəqqəti şərti sərhəddən getmək istəmirlər. Buna əhəmiyyət verməmək olardı. Amma bu bir faktdır ki, Avropa İttifaqı "müşahidəçi" missiyası ilə pərdələnərək Azərbaycanla Ermənistan sərhədində hərbi infrastruktur yaradıb. Sabiq zabitlər, hərbçilər, kəşfiyyatçılardan təşkil olunmuş bu "müşahidəçilər"i başqa necə adlandırmaq olar?! Yaxın gələcəkdə sülh olacaq yerdə isə belə bir "missiya"ya ehtiyac qalmayacağını gərək ki, həmin binokllı "müşahidəçi"lər bilməmiş deyillər. Belə olan halda bu dirənişin səbəbini anlamaq çətindir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*